# MÜHAZIRƏ 11

## COĞRAFİYANIN TƏDRİSİ METODİKASI

**KAFEDRA: Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrası**
**MÜƏLLİM:** Dos. Nərminə Seyfullayeva
**TARIX:** 2018

**MÖVZU**: Coğrafi bacarıq və vərdişlərin formalaşdırılması

## MÜHAZİRƏNİN PLANI

Bacarıq və vərdişlərin təsnifatı. Təcrübi və intellektual bacarıqlar. Coğrafi vərdişlərin formalaşdırılması. Coğrafi təsəvvürlərin formalaşdırılması. Fərdi və umumiləşdirilmiş təsəvvürlər.
Coğrafi nomenklaturanın öyrədilməsi metodikası. Coğrafi təsəvvürlərin formalaşdırılması. Coğrafi xəritələr nomenklaturanın öyrədilməsində əsas mənbə kimi. Siniflər üzrə coğrafi nomenklaturanın həcminin dəyişməsi və varisliyi

> "Nəyi öyrənmək lazımdır? Burada yada bir latın ifadəsi düşür: çox şeyi ancaq bir az (Multum, non multa), yəni kəmiyyət yox, keyfiyyət. Elə yığcam bilik qazanmaq lazımdır ki, onu müxtəlif şəraitlərdə qərar qəbul edəndə tətbiq etmək mümkün olsun"
> Akademik A.X.Mirzəcanzadə

Bəzi tədqiqtçılar hesab edir ki, təlim şagirdlərin bilik, bacarıq və vərdişlərini mənimsəməsi üçün təşkil olunan məqsədyönlü prosesdir. Ənənəvi təlim proqramında şagirdlərin hafizəyə əsaslanan nəzəri biliklərlə yüklənməsi tədris prosesinin əsas məqsədi idi. Monoloji təlimə əsaslanan ənənəvi tədris reproduktiv yolla öyrədilirdi. Şagirdlər öyrəndiklərini təkrarlamaqla hansı səviyyədə "əzbərlədiklərini" nümayiş etdirirdi. Müasir kurikulum isə şagirdlərdə biliklərdən bacarıq və vərdişlərin formalaşdırılması məqsədi ilə istifadə edilməsinə yönəlmişdir. Fəal təlim prosesində biliklər öyrənilən problemin tətbiq edilməsi məqsədi daşıyır. Yeni təlim prosesində başlıca məqsəd alınmış məlumatı ancaq yadda saxlamaq deyil, həm də onun əvvəlki məlumatla qarşılıqlı əlaqəsini başa düşməkdir. Sadalanan fəaliyyətlər- tədqiq etmək, əlaqə qurmaq, təsnif etmək, qruplaşdırmaq, kontur xəritə üzərində çəkmək, qrafik qurmaq, sxem çəkmək, cədvəl tərtib etmək, xəritədə göstərmək və s –lər biliklər üzərində əldə edilən bacarıqlardır. Bu bacarıqlar dəfələrlə təkrarlandıqda vərdişlərə çevrilir.
Bacarıq və vərdişləri çox vaxt ağlın ikinci göstəricisi kimi də qəbul edirlər. Müasir dövrdə dərsin məqsədi bacarıqların formalaşdırılmasına istqamətləndirilmişdir.

Yeni təlim sisitemində dərs prosesində şagirdlərin qarşısında qoyulan məqsədlər və ya təlim nəticələri bilik yadda saxlamadan bacarığa çevrilmişdir.
Şagirdlər qarşısında- “ *Mən bu gün dərs prosesində düşünməyi, iddia etməyi, səbəb-nəticə əlaqələri qurmağı, məntiqi ardıcıllıqala problemləri ardıcıl düzməyi, obyekt və hadisələri təsnif etməyi və s.öyrəndim” məqsədi qoyulur. Göründüyü kimi sadalanan fəaliyyətlər əsasən biliklər deyil, bilklər üzərində qurulan bacarıqlardır.*

Bacarıqlar EMPRİK bilklərdir. Emprik –sözünün mənası təcrübi deməkdir. *Emprik biliklər fənnin məzmununa daxil olan bacarıqların cəmidir. Bacarıqları* formalaşdırmaq üçün istifadə olunan metod və üsullar xarakterinə görə fərqlidir. Bacarıq bir sıra əqli və əməli hərəkətlərin ardıcıl icrasıdır

Təlimdə şagirdlərin öyrəndikləri bacarıq və vərdişləri iki əsas qrupa ayırmaq olar:

1) ümumi bacarıq və vərdişlər- Ümumi bacarıq və vərdişləri bütün fənlərin tədrisində müşahidə etmək mümkündür. Şagirdlərin mətn üzərində işləmək qabiliyyəti, şəkil və illüstrasiyaları təhlil etmək fəaliyyəəti, Dərsin mövzusuna uyğun təqdimat vermək və s ümumi bacarıqlardır.

2) xüsusi bacarıq və vərdişlər. Xüsusi bacarıq və vərdişlər isə yalnız bir fənnin tədrisi üçün spesifik olur, başqa fənlərdə müşahidə edilmir. Coğrafiya fənninin tədrisində şagirdlərin əldə edə biləcəyi – kartoqrafik vasitələr üzərində işləmək, plan çəkmək, kontur xəritə vərəqi üzərində hər hansı tapşırığı yerinə yetirmək, məhəldə ölçü içləri aparmaq, məsafələri ölçmək, miqyası təyin etmək və hesablamaq, üfüqin cəhətlərini təyin etmək, kölgənin istiqaməti və uzunluğuna görə coğrafi mövqeyi və günün vaxtını müəyyən etmək, hava üzərində müşahidələr aparmaq, atmosfer təzyiqini ölçmək və hesablamaq, havadakı rütubətliyi təyin etmək, yağıntıların miqdarını ölçmək, çay dərəsinin enini və dərinliyini hesablamaq, torpaq qatının dərinliyini, torpaqda rütubətliyi və humusun miqdarını müəyyən etmək, istixana effektinin yaranmasını təcrübi yolla müşahidə etmək və s.-lər xüsusi bacarıqlardır.

Bilik və bacarıqların formalaşdırlmasında dörd səviyyə mövcuddur:
1) tanışlıq səviyyəsi;
2) biliklər səviyyəsi;
3) bacarıqlar səviyyəsi
4) vərdişlər səviyyəsi.

Bilik, bacarıq və vərdişlər bir-biri ilə qarşılıqlı əlaqədardır.
Hər bir bacarıqda müvafiq biliklər iştirak edir; şagirdlər öz bilikləri vasitəsi ilə verilən tapşırıq əməliyyatını yerinə yetirir.
Hər bir bilik də öz növbəsində təcrübəyə tətbiq edildikdə müəyyən bacarığın yaranmasını şərtləndirir. Bacarıq və vərdiş arasında da qırılmaz əlaqələr vardır. Bacarıq bir sıra əqli və əməli hərəkətlərin ardıcıl icrasıdır. Yeni tədris proqramlarında (kurikulumda) bacarıqlar məzmun standartlarında komponent kimi çıxış edir, və fəaliyyətlə ifadə olunur. Fəaliyyət və ya bacarıqlar 3 qrupa ayrılır:

**1. İdraki və ya koqnitiv** – intellektual bacarıq və vərdişlərin inkişaf etdirilməsini əks etdirir. Coğrafiya fənninin məzmununun əsas hissəsini təşkil edən müqayisələr, fərqləndirmələr, qiymətləndirmələr, təhlillər, izahlar və s. şagirdlərin idraki bacarıqlarının inkişaf etdirilməsini təmin edir. İdraki bacarıqları formalaşdırarakən tanımaq, izah etmək, nümunə gətirmək, istifadə etmək və s. fellərindən istifadə etmək lazımdır. Coğrafiya fənninin tədrisində - *hesablamalar* aparmaq ( miqyasın tapılması, coğrafi koordinatların təyini, şaquli istiqamətdə havanın temperatur və atmosfer təzyiqinin hesablanması, rütubət əmsalının tapılması, vaxt fərqlərini hesablanması, günəş şüalarının düşmə bucağının təyin edilməsi, çayın su sərfinin, meyilliyinin, düşməsinin hesablanması, su hövzələrində dərinliyin hesablanması, əhalinin təbii. Ümumi artımının, şəhər və kənd əhalisinin payınını, ÜMM və ÜDM –nin hesablanması, İİİ-nin hesablanması və s) , *şərti işarələri müəyyən etmək, topoqrafik və coğrafi imla tərtib* etmək idraki bacarıqlardır.

**2. Affektiv və ya emosional** – bu fəaliyyət növü xüsusi fikirləri ifadə edərkən, cavab verərkən, təqdimat və ya şərh edərkən formalaşır. Coğrafiya fənninin tədrisində şagirdlərin hər hansı mövzu üzrə referat, layihə hazırlayaraq onu təqdim etməsi və s. affektiv bacarıqların inkişafını təmin edir. Coğrafiya fənninin tədrisində - şagirdin xəritə üzərində fəaliyyətinin təqdim etməsi, coğrafi təcrübələri ( vulkan modelini düzəltmək, bulud və şeh əmələ gəlməni əyani şəkildə göstərmək, debat və keys –stadi dərslərində öz mövqeyini nümayiş etdirmək , apardığı sosial layihələri əsaslandaırmaq və s. ) nümayiş etdirməklə emosianal bacarıqlarını ifadə edir.

**3.Psixomotor və ya hərəki** – bu bacarıqlar əzələ inkişafını və şagirdin hərəki fəaliyyətini əks etdirir. Coğrafiya dərslərində şagirdlərin psixamator fəaliyyəti -praktiki dərslərdəki fəaliyyəti ilə ( məhəldə, xəritə üzərində və təcrübələr zaman), sxemlər qurmaqla, məsafələrin ölçməsi, plan tərtib etməsi və s. aparılan əməliyyatlarla ifadə olunur.

Coğrafiya kurikulumunda bilik və bacarıqlar sistemi təlim materiallarının məzmununda aparıcı xətt olaraq şagirdlərin yaş səviyyəsinə görə ardıcıl və varislik prinsipi ilə tərtib edilmişdir. Təlim materialının məzmunu özündə başlıca olaraq dörd elementi- *biliklər sistemini, bacarıq və vərdişlər sistemini, yaradıcı fəaliyyət təcrübəsini, münasibətlər* sistemini əhatə edir. Bu dörd element qarşılıqlı münasibətə girərək dünya təcrübəsinin zəruri hissəsini özündə saxlayan təlim materialının məzmununu əmələ gətirir

**Biliklər sistemi** - təlimin başlıca, aparıcı komponenti hesab olunur. "Onda bəşəriyyətin ümumiləşdirilmiş təcrübəsi", həyatın müxtəlif sahələrindən elmə məxsus olan faktların, qayda və nəticələrin, qanunauyğunluqların, nəzəriyyələrin əksi ifadə edilmişdir. Coğrafiya fənninin məzmunu, coğrafi terminlər, səbəb-nəticə əlaqələri, coğrafi hadisə və proseslərin izah edilməsi, coğrafi qanunauyğunluqların izah edilməsi biliklər sistemini təşkil edir.

**Bacarıqları** öz əsaslarına görə yaradıcı fəaliyyət hesab edirlər. Bacarıq- mürəkkəb kompleks hərəkəti icra etmək qabiliyyətidir. Coğrafi bacarıqlar

şagirdlərin kartoqrafik vasitələr ilə işləmək, onları təhlil etmək, coğrafi hesablamaları yerinə yetirmək və s.-dir.

Bacarıqla vərdiş arasında olan münasibətləri pedaqoqlar fikir ayrılığı ilə şərh edirlər. Hər halda "bilik-bəsit bacarıqlar - vərdişlər- mürəkkəb bacarıqlar – yaradıcı əməllər" formulu daha məqsədə müvafiq görünür.

Bacarıqlar 2 növə ayrılır:

1. ***Tətbiqi (praktik***) -coğrafi koordinatların təyini, şaquli istiqamətdə havanın temperatur və atmosfer təzyiqinin hesablanması, rütubət əmsalının tapılması, vaxt fərqlərini hesablanması, günəş şüalarının düşmə bucağının təyin edilməsi, çayın su sərfinin, meyilliyinin, düşməsinin hesablanması, su hövzələrində dərinliyin hesablanması, əhalinin təbii. Ümumi artımının, şəhər və kənd əhalisinin payınını, ÜMM və ÜDM –nin hesablanması, İİİ-nin hesablanması və s)

***2. İntellektual*** - məntiqi əməliyyatların həyata keçirilməsi- analiz, sintez, müqayisə, ümumiləşdirmə, nəticə çıxarma və s. olub, apardığı fəaliyyətin məzmunudur, Onların cavablarını hazır şəkildə tədris materiallarndan tapmaq qeyri-mümkündür. Cavablar şagirdlərin məntiqi nəticələrindən üzə çıxmasına imkan verir

Coğrafiya fənninin tədrisində bacarıqlar **məhəldə, təbiətdə, xəritə və digər kartoqrafik təsvirlər** üzərində formalaşdırılır və formalaşdırma prosesi xüsusi metodika tələb edir.

Bacarıqları formalaşdırmaq üçün müəllim şagirdlərə müəyyən fəaliiyətləri öyrətməlidir. Onlar aşağıdakılardır:

a. ƏTRAF ALƏM- Təbiət obyektlərini, əhalini və təsərrüfat sahələrini müşahidə etmək, çöl tədqiqatlarının nəticələrini işləmək ( plan tərtib etmək, külək gülünü çəkmək, orta temperaturu tapmaq və s)
b. KARTOQRAFİK TƏSVİRLƏR - coğrafiya xəritəsi,plan, qlobus üzərindən alınan bilik və bacarıqlar ( istiqamətin, məsafə ölçülməsi, və s)
c. QRAFİK TƏSVİRLƏR– diaqram, hidroqraf, sxemlər cədvəllərin təhlil edilməsi.
d. STATİSTİK MATERİALLAR –rəqəm və statistik cədvəllərin təhlil edilməsi

Bacariqlarin formalaşdirilmasi ani olmur. Onlr bir neçə mərhələdn ibarətdir. Bu ardıcıl prosesdir. Şagirdlərin yaş səviyyəsindən, maraq dairəsindən, əqli səviyyəsindən asılıdır. Bacarıqların formalaşdırılmasında 5 mərhələ mövcuddur.

**1.Bacarıqların əhəmiyyətini göstərmək** – məsələn çayın hidroqrafının oxunmasının əhəmiyyəti haqqında məlumat verir, zəngin informasiya almagın mümkünlüyü qeyd edir

**2.Nümunə göstərmək və görüləcək işin ardıcıllığını başa salmaq-** məsələn çayın hidroqrafında üfüqi və şaquli xətlərin nəyi göstərdiyini, suyun cəviyyəsini göstərən rəqəmlərin aylar üzrə paylanmasını göstərmək

3.Müəllimin rəhbərliyi ilə şagirdlərin **fəaliyyəti yerinə yetirməsi-** bu mərhələdə şagirdlərin edə biləcəyi səhvlər barədə məlumat verilir.

4.Şagirdlərin **müstəqil fəaliyyəti**- məsələn, çayın hidroqrafını qurarakən şagirdlər məlumatları hansı mənbədən almağı, qrafikin qurmağın yollarını müstəqil surətdə yerinə yetirirlər.

5.Bacarıqları **yeni situasiyalarına**, yeni materiallarla işləməyə tətbiq etmək – məsələn, şagirdlər yeni informasiyalar əsasında digər çay üçün hidroqroqraf tərtib edirlər.

Müasir təlim prosesində bacarıqların formalaşdırılmasını aşağadakı kimi olduğunu qəbul edirlər:

a. Imitasiya- yəni şagird müəllimi təqlid edir. Qrafik müəllim tərəfindən çəkilir. Şagirdlər onu bənzədərək təkrarlayır.
b. Təhrif edilmiş icra- şagird qrafiki özü çəkir, lakin müəyyən səhvlərə yol verir. İcra prosesi təhriflidir.
c. Dəqiq icra- şagird sərbəst olaraq cədvəldə verilən rəqəmlər əsasında qrafik qurur, onu təhlil edir.

Bacarıqların formalaşdırılmasının nəticəsi olaraq bu prosesdə şagirdlər tərəfindən işin müstəqil surətdə yerinə yetirilməsi zamanı bacarıqlar vərdişlərə və biliklərə çevrilir.

**Vərdiş** - şüurun xüsusi nəzarəti olmadan hər hansı bacarığın avtomatik surətdə dəqiq icrasıdır. Vərdişlər hərəkətlərin icrası qaydalarını bilmək zəminində formalaşır. Coğrafi vərdişlərə sahib olmaq üçün coğrafi bacarıqları səhv etmədən icra etməkdir. Vərdişlər təkrara tapşırıqların yerinə yetirilməsi nəticəsində formalaşdırılır. Təkrar tapşırıqlar bacarıq və vərdişlərin formalaşdırılamasında rol oynasa da onlardan sui-istifadə etmək olmaz. Çox sayda eyni tipli tapşırıqların verilməsi şagirdlərin dərk etmə marağını kütləşdirə bilər. Tapşırıqların yerinə yetirilmə şərtləri dəyişkən olduqda onların effekti daha yüksək olur.

Tədris prosesində qazanılan bacarıq və vərdişlər də təhsilin zəruri komponentləridir. Məsələn, oxu, yazı, hesablama, zehni və praktik məsələlərin həlli və s.

Tədris prosesində ən mühüm məsələ şagirdin onlara verilən suallara cavab tapmağı öyrənməsidir. Bu özünəməxsus bacarıq olub şagirddən bilik, çeviklik, qavrama, anlama, sintez tələb edir. Bu, şagirddən fəal, yaradıcı iş, alınmış məlumatı təhlil etmək bacarığı tələb edir. Sualın qoyuluşu şagirdin bu bacarıqları inkişaf etdirməyə yönəlməlidir. Bunun üçün müəllim dərs keçərkən ilk növbədə problemli vəziyyət yaratmalı və sualları problem şəklində qoymalıdır.

Problemli vəziyyəti yaratmaqla şagirdlər bilikdən bacarığa doğru istiqamətləndirilir. Şagirdlərin idrak fəaliyyətini aktivləşdirmək və onların bacarıqlar vasitəsi ilə yeni biliklər qazanmaq imkanını yaratmaq üçün ilk olaraq onları qoyulan sual vasitəsi ilə təəccübləndirmək lazımdır. Təəccüb mərhələsinin sonu şagirdlərin müxtəlif fərziyyələr irəli sürmək mərhələsinə daxil olması ilə bitir.

Fərziyyələrin irəli sürülməsi şagirdlərin yeni qərarlar  qəbul etməsi və onların bilikləri təhlil etmək, tətbiq etmək bacarıqları əsasında formalaşır.
Şagirdlərin bacarıq  və vərdişlərini inkişaf etdirmək üçün onlara  müstəqil işlər. dərsdən sonra tapşırıqları vermək lazımdır.  Müstəqil ev işi tədris proqramlarının tələblərini, həmçinin məktəblilərin maraq və tələbatlarını, onların inkişaf səviyyəsini nəzərə almaqla qurulur. Sinifdənxaric müstəqil iş şagirdlərin müstəqilliyinə, şüurluluğuna, fəallığına , müşahidə aparmağa, sosial sorğular keçirməyə və s-ə istinad edir. Düzgün təşkil edilmiş sinifdənxaric fəaliyyət şagirdlərin inkişafında sinifdəki fəal işdən heç də az əhəmiyyət kəsb etmir.

Şagirdlərin evdə müstəqil işi aşağıdakı təlim funskiyalarını yerinə yetirir:

1) dərsdə əldə olunmuş bilik və bacarıqları möhkəmlətmək;
2) sinifdə keçirilmiş tədris materialını genişləndirmək və dərinləşdirmək;
3) çalışmaları müstəqil yerinə yetirmək üçün bacarıq və vərdişləri formalaşdırmaq;
4) proqram materialı çərçivəsində fərdi tapşırıqları yerinə yetirmək yolu ilə təfəkkürün müstəqilliyini inkişaf etdirmək;
5) fərdi müşahidələr və təcrübələr aparmaq, dərslərdə yeni mövzuları öyrənmək üçün material toplamaq və tədris vasitələri hazırlamaq (təbiət nümunələri, şəkillər, üllüstrasiyalar, qəzet və jurnallardan kəsilib götürülmüş və statistik materiallar əsasında).

Bacarıqlar yalnız dərs prosesində deyil **dərsdənkənar məşğələlərdə** də formalaşdırılır. Bunlardan ən mühümü coğrafiya dərnəklərində aparılan praktiki işlərdir.
Coğrafiya dərnəkləri öz istiqamətinə, məzmununa, iş metodlarına, keçirilmə vaxtına görə müxtəlifdir. Düzgün təşkil olunmuş coğrafiya dərnəkləri şagirdərin maraq və meyillərinin inkişafında olduqca əlverişli rol oynayır. Təlimə müsbət münasibət inkişafa da müsbət təsir edir. Dərnəklər fənnüstü inteqrasiyanı təmin edir, həyatla əlaqənin möhkəmləndirilməsinə, fənlərarası əlaqənin inkişafına kömək edir. Şagirdlərin fənn dərnəklərində iştirakı tədris prosesini fəallaşdırır, təlimin keyfiyyətini yüksəldir.

Coğrafiya fənni üzrə təşkil edilən **ekskursiyalar** tədris işinin qədim formalarındandır.  Ekskursiyalar zamanı şagirdlərin bilik-bacarıq- vərdişlərinin inkişaf etdirilməsi üçün geniş imkanlar yaranır. Könüllü keçirilən tərbiyə xarakterli ekskursiyalardan fərqli olaraq, təlim ekskursiyaları tədris proqramlarında öz əksini tapır. Ekskursiyanın hər bir mərhələsinin vəzifəsindən asılı olaraq, müəllim şagirdləri kollektiv, qrup və fərdi tpşırıqlar üzərində işlədir.
Coğrafi bacarıq və vərdişlərin inkişaf etdirilməsi fənn üzrə **fakultativ məşğələlərdə** də  davam etdirilir. Fakültativlər və seçmə kurslar tədris planı üzrə məktəblilərin, onların valideynlərinin arzu və maraqlarını nəzərə almaqla işlənib hazırlanır. Fakültativlərin və seçmə kurslar siyahısı tərtib edilərkən təkcə şagirdlərin arzularına deyil, həm ictimai tələbatlara və məktəbin imkanlarına əsaslanılır.
Coğrafiya fənni üzrə özünəməxsus bacarıqlar mövcuddur:

1. **Kartoqrafik vasitələr üzərində aparılan** əməliyyatlar- xəritə, xəritə-sxem, plan, topoqrafik xəritə və s. üzərində bacarıqlar ən mühüm coğrafi bacarıqlardır. Müəllim bu bacarıqları formalaşdırmaq üçün ilk növbədə şagirdlərə şərit işarələri tanımaq, onları şəkə bilmək qabiliyyətini öyrətməlidir. Kartoqafik təsvirlər üzərində vizual, kartometrik və kartoqrafik təhlillər aparmağı öyrətmək və onları bilmək, başa düşmək və oxumaq bacarıqları öyrədə bilər. Kartoqrafik vasitələr üzərində bacarıqlar idraki və psixomotor bacarıqlardır.
2. **Qrafik təsvirlər üzərində bacarıqları** – iqlim diaqramları, yaş piramidaları, çay hidroqrafları və s. yalnız əyani vasitələr deyil, onları əsaında hər hansı cədvəl, durur. Onlar eyni zamanda şagirdlərin təhlil etmək qabiliyyətini artırmaq üçün vasitədir. Qrafiklər rəqəm materiallarının əyani şəkildə ifdə edilməsi üçün praktik fəaliiyət tələb edir. Onlar mövzunun daha asan mənimsənilməsinə imkan verir. Qrafiklər özündə zəngin informasiya daşıyır. Qrafik sxemlər vasitəsi ilə şagirdlər dinamika və ya inkişafı müəyyən edə bilir. Qrafiklər bacarıqların biliklərə və ya əksinə bacarıqların biliklərə çevrilməsi prosesidir. Coğrafiya dərslərində qrafiklər üzərində aparılan bacarıqlaar iki mərhələdə aparılır
   1. Hazır qrafiklər üzərində aparılan işlər.
   2. Şagirdlər tərəfindən tərtib olunan qrafiklər.

Şagirdlərin qrafikləri tərtib etməsi praktik iş hesab edilir. Bu onların vərdişə çevrilməsi ilə nəticələnir və psixomotor fəaliiyətini əks etdirir. Qrafiklərin tərtib edilməsi bacarıqları 3 mərhələdə aparıldıqda onun düzgün formalaşması başa çatır:

**3.Coğrafi mətnlər üzərində işləmək bacarıqları-** dərslik mətnləri üzərində formalaşdırılan bacarıqlar. Müəllim mətn üzərində bacarıqları formalaşdırmaq üçün müxtəlif oxu strategiyalarından istifadə etməli, mətnin planını yazmaq, mətni hissələrə ayırmaqla öyrənmək, mətndəki asas anlıayışları seçə bilmək, mətndə səbəb-nəticə əlaqələrini ayırmaq, mətndə coğrafi terminləri seçmək, mətnə əsasən lüğət yaratmaq, mətn əsasında xülasə, annotasiya və esse yazmaq, mətnin məntiqi sxemini qurmaq, mətni modelləşdirmək və s fəaliyyətləri ardıcıl və fasiləsiz tətbiq etməlidir. Coğrafi mətnlər üzərində bacarıqlar idraki bacarıqlardır.

4. **Şəkil və iilüstrasiyalar üzərində formalaşdırlan bacarıqlar** - coğrafi bacarıqların formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Çünki coğrafi informasiyaların böyük əksəriyyətini şəkil, illüstrasiyalar üzərində qurmaq təqdim etmək mümkündür. Müəllimi şagirdlərə şəkil və iilüstrasiyalar üzərində coğrafi bacarıqları formalaşdırmaq üçün ilk növbədə şəkilin təhlil etməyi öyrətməlidir. Şəkil və illüstrasiyanın hissə-hissə və tam şəklində təhlil etmək tələb olunmalı,

şəklin ön və arxa fonunda olan görüntüləri, şəkildəki görünən və görünməyən komponentləri, şəklin hansı mövzuya aid olduğunu, şəkil əsasında esse yazmağı, şəklin əhəmiyyətini, şəklin hansı əraziyə və regiona aid olduğunu və s. müzakirə etmək məqsədəuyğundur.

Təcrübi coğrafi biliklər nəzəri biliklər sistemi üçün qurulan bünövrə rolunu oynayır. Təcrübi biliklərin tərkibinə

*-coğrafi faktlar ,*
*-coğrafi nomenklatura*
*-coğrafi təsəvvürlər*
daxildir.

**Coğrafi faktlar**

**Fakt- maddi və ya mənəvi dünyanın təzahürüdür. Məktəb coğrafiyasının məzmununa müxtəlif faktlar daxildir: coğrafi ərazilərin adları, səyyahlar, səyahət zamanı onların gəmilərinin adları və ekspedisiyalarının nəticələri, atmosfer qaтları, havanın tərkibi,buludların növləri, dağ süxurlarıныи mənşəyi, regionların ixtisaslaşdığı sahələr və b.**

Coğrafi faktlarin növləri-
1. Əyani illüstrativ
***- konkret faktlara xidmət edir və yardımcı rolunu oynayırlar. Əyani faktlara- çayların uzunluğu, göllərin dərinliyi, məntəqələrdə orta illik temperatur və s. haqqındakı məlumatlar aid олуна bilər.Onları yadda saxlamaq məcburi deyil***
2.Təlimatlandırıcı öyrədici
***- normativ sənədlərdə müəyyən olunmuş (standartlarla, proqramlarla) tələblərin tərkibinə daxildir ,coğrafi kəşflərin tarixindəкu faktlar, coğrafi obyekt və hadisələrə aid rəqəm göstəriciləri və s. Onları yadda saxlamaq tələb edilir.***

Coğrafi faktların öyrədilməsi yolları
1. Faktların seçilməsi- tədris materialları çox yüklənməməlidir
2. Faktların izahı- öyrənilən nəzəri materialların bazasında həyata keçirilir
3. Faktların müqayisəsi-onların daha anlanılan və başa düşülən olmasıdır

4.Faktların təsnifatı və ümumiləşdirlməsi-coğrafi hadisə və proses haqqında nəticə çıxarmağa xidmət edir

5. Təcrübələrin nümayiş etdirilməsi- əyani şəkildə emprik bilikləri formalaşdırmaq olar

6. Müstəqil işlərin təşkili- bir sıra faktların şagirdlərin özləri tərəfindən əldə edilməsi

7. Faktların müəyyən qanunauyğunluqlar ətrafında qruplaşdırılması

**COĞRAFİ NOMENKLATURA**

Orta məktəbin proqram tələblərindən biridir. Metodik ədəbiyyatda coğrafi adla istifadə olunur. Coğrafi nomenklatura obyektin xəritədə yerləşməsinin mənimsənilməsini nəzərdə tutur. Bu xəritədə coğrafi adin tapilmasi, göstərilməsi və adlandirilmasini əhatə edir.

Coğrafi nomenklaturanın öyrənilməsinin əhəmiyyəti

1.İşin təşkili zamanı yaddaşın bütün növlərindən istifadə olunur:

EŞİTMƏ

GÖRMƏ (VİZİAL )

HƏRƏKƏTVERİCİ

Coğrafi nomenklaturanın öyrədilməsi

Coğrafi nomenklatura məzmunlu krossvordlar tərtib etmək, coğrafi diktant yazmaq, xəritə üzərində səyahət keçirmək, coğrafi adlardan yeni adlar çıxarmaq, coğrfai adların təsvirini çəkmək və s.

COĞRAFİ TƏSƏVVÜRLƏR

**Coğrafi obyektlərin müşahidə obrazlarını yaratmağı tələb edir. Təsəvvürlərin iştirakı olmadan tədqiq olunan ərazilərin *surətini yaratmaq* (regionların, dağın, çayın, ölkənin və s) mümkün deyil. Təsəvvürlər nəinki müstəqil məna daşıyır, həmçinin coğrafi anlayışların formalaşması üçün bünövrə təşkil edir.**

Coğrafi təsəvvürlərin yaradilması müxtəlif vasitələrin köməyi ilə yaradılır. Bunlar aşağıdakılardır:

1. **ƏYANİ TƏDRIS VASITƏLƏRI-** şəkillər, rəsmlər, dağ süxurları və minerallardan ibarət kolleksiyalardan, bitki herbarilərindən, həcmli modellərdən, torpaq nümunələrindən, kiçik heyvanların müqəvvalarından, canlı bitkilərdən və c.
2. **Audiovizual** tədris vasitələri- slaydlar, videofilmlər, animasiyalar, səsli elektron vasitələr, internet materialları
3. **Kartoqrafik təsvirlər-** coğrafi xəritələr, plan, qlobus, topoqrafik xəritələr. kontur xəritələr, sxem -xəritələr вя c
4. **Qrafik təsvirlər-** sxemlər, piramidalar, diaqramlar, hidroqraflar və s.
5. **Statistik rəqəmlər əsasinda-** cədvəl və ya faktiki rəqəmlər əsasında verilən mövzuya dair məlumat vermək və ya onu təsvir etmək mümkündür.

Coğrafi təsəvvürlərin yaradılması üsulları

1. Hafizə əsasında- əyani vəsaitlərin koməyi ilə
2. Təxəyyül əsasında- obyektlərin bilavasitə qavranılmadan yaranan obrazlarıdır. Real gerçəkliyin təsəvvürüdür.( məsələn çöl, səhra və s)

Coğrafi təsəvvürlərin yaradılmasında əsas mənbə müəllimin canlı çıxışıdır. Müəllim jest göstərməklə, intonasiyası ilə, sözlərlə təsvir etmək qabiliyyətinə malik olmalıdır.

Coğrafi təsəvvürlər fərdi və ümumiləşdirilmiş ola bilər. Hər hansı coğrafi hadisə və prosesə dair şagirdin müstəqil olaraq təsəvvürü olmaqla yanaşı həmin hadisə və prosesin ümumi şəkildə qəbul edilmiş təsəvvürü də olur.

Ümumiləşdirilmiş təsəvvürlər ilə fərdi təsəvvürlər uyğun gəldikdə materialı anlamaq daha asan olur. Ziddiyyətli olduqda isə qavarma çətinləşir.

Coğrafi təəvvürlərin yaradılması üçün 4 mərhələ məqsədəuyğundur:

1. Tapşırığın qoyulması- şəkildə nəyə diqqət yetirməyin lazım olduğunu bildirmək
2. Hissi qavrama-obyektin əlamətlərini ayırmaq
3. Təhlil- obyektin analiz və sintezini aparmaq
4. Təsəvvürün möhkəmləndirilməsi- bilikləri digər tapşırıqlara tətbiq etmək

İstifadə olunan ədəbiyyat.

1.Coğrafiyanın tədrisi metodikası. Ali məktəblər üçün dərslik . N.S. Seyfullayeva 2011

2. Coğrafiyanın tədrisi metodikası. Ali məktəblər üçün dərslik . O.K.Alxasov 2013